**https://doi.org/10.58225/tim.2025-3-365-370**

**Ebru Kalan Halit qızı**
***doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti***

*Məqalə redaksiyaya daxil olub 03.10.2025*
*The article was received by editorial board on 03.10.2025*
*Статья принята к печати 03.10.2025*

# FAİZSİZ MALİYYƏ SİSTEMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ: İSLAM BANKLARININ QLOBAL TƏCRÜBƏSİ

**Xülasə**

*Məqalədə faizsiz maliyyə sistemlərinin nəzəri əsasları, inkişaf istiqamətləri və tətbiq mexanizimləri geniş şəkildə təhlil edilir. Tədqiqatda, xüsusilə, İslam bankçılığının beynəlxalq maliyyə bazarında əldə etdiyi təcrübə və bu təcrübənin qlobal iqtisadi münasibətlərə göstərdiyi təsir araşdırılır. Müasir dünyada maliyyə bazarlarının inteqrasiyası fonunda faizsiz maliyyənin əhəmiyyətinin artdığı, onun faliyyət dairəsinin sürətlə genişləndiyi müşahidə olunur. Məqalədə faizsiz maliyyə modelinin əsas prinsipləri, İslam banklarının bu model əsasında həyata keçirdikləri əməliyyatlar, həmin əməliyyatların üstünlükləri və çatışmazlıqları sistemli şəkildə qiymətləndirilir. Bununla yanaşı, faizsiz maliyyə sistemlərinin potensizl riskləri, risklərin idarə olunması metodları və davamlı inkişaf perspektivləri də təhlil olunur. Araşdırmada həmçinin, İslam maliyyə istitutlarının fəaliyyətinin müasir qlobal maliyyə sistemində hansı mövqedə qərarlaşdığı, bu sistemin sosial məsuliyyət və etik prinsiplərlə uzlaşması məsələləri də diqqət mərkəzində saxlanılır. Tədqiqatın başlıca məqsədi İslam maliyyə müəssisələrinin cari fəaliyyətini obyektiv meyarlarla qiymətləndirmək, onların beynəlxalq təcrübə əsasında inkişaf potensialını müəyyənləşdirmək və gələcəkdə faizsis maliyyə modelinin iqtisadi sistemlərdə daha effektiv tətbiq imkanlarını üzə çıxarmaqdan ibarətdir. Nəticə etibarilə, məqalə faizsiz maliyyə sistemlərinin yalnız dini-etik əsaslara söykənmədiyini, eyni zamanda müasir iqtisadiyyatın dayanıqlılıq, risklərin bölüşdürülməsi və sosial məsulliyyət kimi mühüm tələblərinə cavab verən alternativ maliyyə modeli kimi çıxış etdiyini ortaya qoyur.*

***Açar sözlər:*** *qlobal maliyyə, İslam bankçılığı, risk paylaşımı, faizsiz maliyyə, riba qadağası, dünya iqtisadiyyatı, sosial məsuliyyət, faizsiz maliyyə modeli, faiz həssaslığı.*

## GİRİŞ

Müasir dövrdə qlobal maliyyə sistemlərinin inkişafı, müxtəlif mexanizmlərin formalaşması və kapital bazarlarının inteqrasiyası fonunda alternativ maliyyə modellərinə maraq əhəmiyyətli dərəcədə artmışdır. Bu kontekstdə, faizsiz maliyyə sistemi müasir iqtisadiyyatın diqqət mərkəzində dayanan əsas istiqamətlərdən birinə çevrilmişdir. Xüsusilə İslam bankçılığına əsaslanan faizsiz maliyyə konsepsiyası etik prinsiplərə söykənməsi, sosial məsuliyyət yönümlü olması və iqtisadi münasibətlərdə ədalətli bölgü mexanizmini təşviq etməsi ilə fərqlənir. Bu sistemin əsas mahiyyəti maliyyə əməliyyatlarının yalnız real aktivlər üzərində qurulması, risklərin tərəflər arasında ədalətli bölüşdürülməsi və faizli əməliyyatların qadağan edilməsi ilə izah olunur. Faizsiz maliyyə sisteminin ən mühüm üstünlüklərindən biri onun spekulyativ əməliyyatları məhdudlaşdırması və maliyyə sabitliyinə töhfə verməsidir.

Belə ki, bu modeldə borclanma mexanizmləri ənənəvi faiz əsaslı kreditlərdən fərqli olaraq real iqtisadi dəyərə malik aktivlərlə təmin edilir. Bu isə həm maliyyə əməliyyatlarının şəffaflığını artırır,

həm də risklərin idarə olunmasını asanlaşdırır. Müasir qlobal iqtisadiyyatda getdikcə daha çox dövlətin və maliyyə institutunun faizsiz maliyyə prinsiplərinə maraq göstərməsi təsadüfi deyildir. Avropa və Amerika kimi ənənəvi bankçılığın üstünlük təşkil etdiyi qeyri-müsəlman qitələrində belə İslam maliyyə modellərinə olan maraq artmaqda və bu sahədə mühüm təcrübələr formalaşmaqdadır. Faizsiz maliyyə sisteminin yüksəlişinin arxasında yalnız dini və ya mədəni amillər deyil, eyni zamanda iqtisadi səmərəlilik və sosial ədalət prinsipləri də dayanır.

Bu yanaşma, qlobal maliyyə böhranlarının yaratdığı risklər fonunda xüsusilə aktuallıq kəsb edir. Çünki faizsiz maliyyə sistemi spekulyativ əməliyyatların qarşısını almaq, iqtisadiyyatın real sektoruna kapital axınını təmin etmək və sosial məsuliyyətli investisiya mühitini təşviq etmək baxımından üstünlüklərə malikdir. Beləliklə, İslam bankçılığı və faizsiz maliyyə sistemi müasir qlobal iqtisadi mühitdə yalnız alternativ deyil, eyni zamanda dayanıqlı inkişaf və sosial rifahın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən maliyyə modeli kimi qiymətləndirilə bilər. Bu sistemin nəzəri əsaslarının və praktik tətbiq mexanizmlərinin araşdırılması həm iqtisadi elmlər, həm də maliyyə siyasəti baxımından aktual və vacib məsələlərdən biridir.

Faizsiz Maliyyə Sistemlərinin Fundamental Prinsipləri İslam maliyyə sisteminə baxış bir neçə fundamental prinsiplər üzərində qurulub.

Bunlardan bəzilərini araşdırmaq üçün:

**1. İslamda faizin ( ribanın ) haram olması**

“Riba” anlayışı ərəb dilində “artma” və ya “artıq” mənasını ifadə edir və İslam hüququnda borc müqabilində əlavə gəlir götürmək, yəni faizə əsaslanan qazanc formasını təsvir etmək üçün işlədilən termin kimi tanınır. İslam maliyyə sistemində faiz tamamilə qadağan edilmişdir. Bunun əsas səbəbi, faizli əməliyyatların iqtisadi münasibətlərdə ədalətsiz bölgü yaratması və sosial-iqtisadi bərabərsizliyi dərinləşdirməsidir.

Başqa sözlə, faizli borclanma mexanizmi borcalanı əlavə risklər və məsuliyyətlərlə yükləyərkən, kredit verən tərəfin riskdən tamamilə azad olmasına və zəmanətli gəlir əldə etməsinə şərait yaradır. Bu isə iqtisadi münasibətlərdə balanssızlıq və sosial ədalətsizlik formalaşdırır. İslam maliyyə sistemi isə əksinə, risklərin tərəflər arasında ədalətli şəkildə bölüşdürülməsini, əməliyyatların isə yalnız real aktivlər üzərində qurulmasını nəzərdə tutur. Faizin haram sayılması ilə maliyyə əməliyyatlarında həm borcalanın, həm də kreditorun bərabər məsuliyyət daşıması təmin olunur. Beləliklə, həm bank, həm də müştəri qarşılıqlı riskləri qəbul etməklə iqtisadi proseslərdə ədalət və şəffaflıq prinsiplərinə əməl etmiş olur. Faizsiz maliyyə modelində əsas məqsəd iqtisadi əməliyyatların etik və sosial məsuliyyət çərçivəsində həyata keçirilməsidir.

Bu yanaşma yalnız fərdi borcalanların maraqlarını müdafiə etmir, eyni zamanda ümumi iqtisadi sabitliyə də xidmət edir. Çünki faizli borclanmanın çoxluğu böhran risklərini artırır, sosial bərabərsizliyi gücləndirir və iqtisadi sabitliyə mənfi təsir göstərir. İslam maliyyə sistemində isə faizsiz modelin tətbiqi həm maliyyə bazarlarında, həm də real iqtisadiyyatda dayanıqlılıq və sabitlik üçün mühüm zəmin yaradır. Beləliklə, İslam hüququnda ribanın qadağan olunması yalnız dini prinsip deyil, eyni zamanda sosial və iqtisadi baxımdan əsaslandırılmış bir qərardır. Bu prinsip faizsiz maliyyə sisteminin fundamental sütununu təşkil edir və müasir qlobal iqtisadi mühitdə də ədalət, bərabərlik və davamlı inkişaf üçün əhəmiyyətli alternativ model kimi çıxış edir.

**2. Aktivlərə əsaslanan maliyyə**

İslam bankçılığı sistemində fəaliyyət göstərən maliyyə institutları yalnız pul mənfəətinə fokuslanmırlar. Onlar eyni zamanda real aktivlər üzərində işləyən və iqtisadiyyatın həqiqi dəyərinə əsaslanan bir idarəetmə modelindən istifadə edirlər. Bu yanaşma, maliyyə əməliyyatlarının sadəcə spekulyativ və faiz əsaslı olmaması, əksinə, konkret mallar, xidmətlər və investisiya layihələri ilə dəstəklənməsi prinsiplərinə əsaslanır. Beləliklə, İslam bankçılığı həm risklərin daha şəffaf idarə

olunmasını təmin edir, həm də iqtisadi fəaliyyətləri real aktivlərlə əlaqələndirərək maliyyə sabitliyinə töhfə verir. Bu model, həmçinin sosial məsuliyyət və ədalət prinsiplərinə uyğun olaraq iqtisadiyyatın müxtəlif sahələrində balanslı inkişafı təşviq edir.

**3. Risk və məsuliiyətin bərabər bölgüsü ( Gharar və Maysir qadağan edilməsi )**

İslam iqtisadiyyatında əməliyyat sistemi, bütün maliyyə əməliyyatları üçün yüksək səviyyədə şəffaflıq və müəyyənlik prinsiplərini tələb edir. Sistem daxilində qeyri-müəyyənlik yaradan və ya spekulyativ fərziyyələrə əsaslanan əməliyyatlar qəbul edilməz və rədd olunur. Bu çərçivədə, bütün proseslər ədalətli və balanslı şəkildə idarə olunmalı, əməliyyat modeli hər iki tərəf üçün açıq və hesabatlı olmalıdır. İslam bankçılığı və maliyyə institutları real aktivlərə, iqtisadiyyata töhfə verən investisiyalara əsaslanır və bütün əməliyyatlar hər iki tərəfin tam razılığı və şəffaflığı ilə həyata keçirilir. Bu yanaşma, maliyyə ədalətini təmin edir, iqtisadi sabitliyi gücləndirir və faizsiz sistemin davamlı iqtisadi inkişaf üçün optimal yol olduğunu göstərir.

**Beynəlxalq Təcrübə ilə İslam Bankçılığı**

İslam bankçılığı sistemi yalnız müsəlman dünyası ilə məhdudlaşmır; əksinə, onun tətbiqi qlobal maliyyə sistemində də getdikcə daha çox önəm qazanır. Bu sistemin uğuru əsasən müsəlman ölkələrində müşahidə edilə bilsə də, qlobal miqyasda da artan maraq və tətbiq potensialı mövcuddur. İslam bankçılığı xüsusilə Afrika, Yaxın Şərq, Asiya və Sakit Okean regionlarında sürətlə inkişaf etmək potensialına malikdir.Faizsiz prinsiplər üzərində fəaliyyət göstərən bu sistem gənc müsəlman əhalisinin artan maliyyə ehtiyaclarını və iqtisadi fəallığını qarşılayır. İslam qanunlarına uyğunluq, ticarət əməliyyatlarında mənfəətin ədalətli paylaşımı, qlobal kapital axını və investisiya layihələrinə güclü dəstək bu sistemin qlobal maliyyə arenasında fərqləndirici əsas amillərindəndir. Faizsiz maliyyə mexanizmlərinin yalnız iqtisadi faydalar təmin etməklə kifayətlənməyib, eyni zamanda sosial rifahı dəstəkləyən bir sistem yaratdığı müşahidə olunur. Bu baxımdan, İslam bankçılığı həm davamlı iqtisadi inkişafı təşviq edir, həm də sosial məsuliyyət və ədalət prinsiplərinə sadiqliyi ilə qlobal maliyyə sistemində önəmli rol oynayır.

**Müasir İslam Bankçılığının Tarixi və Müasir Dövrdə İnkişafı**

İslam maliyyəsinin tarixi təxminən son 25 il ərzində sürətlə inkişaf etmişdir. Xüsusilə son 50 ildə İslam maliyyəsi sektoru qlobal maliyyə sistemində mühüm rol oynamağa başlamış və müxtəlif ölkələrdə xüsusi maliyyə institutlarının yaradılmasına səbəb olmuşdur. Bu inkişaf prosesi çərçivəsində İslam bankçılığı və maliyyə sistemi, faizsiz prinsiplərə əsaslanan və real aktivlər üzərində işləyən əməliyyat modelləri ilə fərqlənmişdir. Uğurlu və nümunəvi tətbiqləri ilə Səudiyyə Ərəbistanı , İran, Malayziya və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr İslam maliyyəsinin inkişafında öncülər arasında yer almışdır. Bu ölkələrdə formalaşan strukturlar, həm milli iqtisadiyyata töhfə verir, həm də qlobal maliyyə sistemində faizsiz maliyyə modellərinin yayılmasına imkan yaradır. İslam maliyyəsi yalnız iqtisadi fəaliyyət üçün bir vasitə olmaqla kifayətlənmir, eyni zamanda xalqın potensiallarını daha effektiv inkişaf etdirməyə və sosial rifahı artırmağa yönəlmiş bir sistem kimi fəaliyyət göstərir.

**Qlobal İslam Bankçılığının Vəziyyəti**

2024-cü ilin sonuna İslam bankçılığı sisteminin idarə etdiyi qlobal aktivlərin həcmi təxminən 5,5 trilyon dollar təşkil etmişdir. Bu göstərici, institusional strukturların əsas texnoloji və idarəetmə strategiyalarının səmərəli tətbiq olunduğunu göstərir. Araşdırmalar göstərir ki, bu qurumlar, maliyyə əməliyyatlarını real aktivlər üzərində qurmaqla yanaşı, sosial məsuliyyətli və davamlı maliyyə məhsullarını inkişaf etdirir və qlobal miqyasda genişləndirirlər. İqtisadiyyatın müxtəlif ölkələrində, o cümlədən Azərbaycan, İngiltərə və digər iqtisadi təməli güclü ölkələrdə İslam maliyyə məhsullarına olan tələb əhəmiyyətli şəkildə artmışdır. Bu tendensiya, strukturlaşdırılmış İslam maliyyəsi bazarının 2028-ci ilə qədər təxminən 7,5 trilyon dollar həcminə çatacağı proqnozlaşdırılır. Beləliklə, İslam bankçılığı yalnız regional deyil, qlobal maliyyə sistemində də strateji və davamlı rol oynamaqdadır.

**Cədvəl 1**

**2023-cü ilə qədər ölkələr üzrə İslam bankçılığının vəziyyəti**

| Ölkə | Səudiyyə Ərəbistanı | Malaziya |
|---|---|---|
| Əməliyyatın ilk ili | 1997-ci ildə Al Rajhi Bank | 1983-cü ildə Bank İslam |
| Hüquqi Tənzimləmə | Şəriət əsaslı ümumi bankçılıq təcrübələri | İslam Maliyyə Xidmətləri Aktı 2013 |
| Tənzimləyici strukturlar | AAOIFI\SAMA | Bank Negara Malaysia |
| İslam Bankçılıq təşkilatlarının sayı | 30+ | 16+ |
| Bazar payı ( 2023 ) | 65%+ | 30%+ |

| Ölkə | Türkiyə | İndoneziya |
|---|---|---|
| Əməliyyatın ilk ili | 1985-ci ildə Albara Türk | 1992-ci ildə Bank Muamalat |
| Hüquqi Tənzimləmə | 2005 Bank qanunu | 2008 İslam Bankçılıq qanunu |
| Tənzimləyici strukturlar | BDDK\SPK\TKBB | DSN-MUI\ OJK |
| İslam Bankçılıq təşkilatlarının sayı | 9+ | 12+ |
| Bazar payı ( 2023 ) | 8,5% | 7% |

***Mənbə:*** *Cari ölkələrin müvafiq Mərkəzi Bankı bazasından götürülmüşdür.*

**İslam Banklarının sosial və İqtisadi Faydaları**

İslam maliyyəsi yalnız maliyyə xidmətləri ilə məhdudlaşmır; o, həmçinin sosial rifah və ədalət prinsiplərini təşviq edən bir sistem kimi fəaliyyət göstərir. İslam maliyyəsi gəlir bölgüsündə bərabərsizliyi azaltmaq, yoxsulluğun qarşısını almaq və sosial inklüzivliyi təmin etmək məqsədi daşıyır. Bu məqsədlərə çatmaq üçün zəkat və digər sosial dəstək proqramları tətbiq olunur ki, bu da həm iqtisadi, həm də sosial inkişafın dəstəklənməsini təmin edir.

**Faizsiz Maliyyə Sisteminin Güclü və Zəif tərəfləri**

Beləliklə, İslam maliyyəsi yalnız iqtisadi fəaliyyət və mənfəət üçün bir vasitə olmaqla kifayətlənmir, eyni zamanda cəmiyyətin sosial rifahını artırmaq, yoxsul və həssas təbəqələri qorumaq və bərabər imkanlar yaratmaq məqsədi ilə geniş fəaliyyət göstərir. Bu yanaşma İslam maliyyəsini həm davamlı, həm də sosial məsuliyyətli bir maliyyə sistemi kimi qlobal maliyyə arenasında fərqləndirir.

**Güclü tərəflər:**

1. ədalət və bərabərliyin təmin edilməsi;
2. sosial məsuliyyət və etik dəyərlər;
3. iqtisadi sabitlik;
4. risklərin bölüşdürülməsi;
5. maliyyə daxilliliyi.

**Zəif cəhətləri:**

1. məhdud maliyyə məhsulu çeşidi;
2. yüksək əməliyyat xərcləri və mürəkkəblik;
3. bazarın zəif inkişafı;
4. bazar riskləri və ehtiyatlılıq;
5. kapitalın kifayət qədər olmaması və maliyyə dəstəyinin məhdud olması.

**Faizsiz maliyyə Sistemin Gələcək Perspektivləri**

**1. İnkişaf etməkdə olan bazarlarda rol:** Faizsiz maliyyə sistemi, xüsusilə inkişaf etməkdə olan bazarlarda iqtisadi sabitliyin və maliyyə inklüzivliyinin gücləndirilməsində mühüm rol oynayır. Bu bazarlarda ənənəvi maliyyə sistemləri ilə müqayisədə İslam bankçılığı həm əhalinin geniş təbəqələrinə xidmət edir, həm də risklərin daha ədalətli və şəffaf bölüşdürülməsini təmin edir. Faizsiz maliyyə məhsulları real aktivlərə əsaslandığı üçün, bu bazarlarda iqtisadiyyata birbaşa töhfə verir, həmçinin spekulyativ əməliyyatların yaratdığı riskləri azaldır. Bu yanaşma, maliyyə inklüzivliyi və sosial rifahın artırılması baxımından xüsusilə önəmlidir, çünki cəmiyyətin müxtəlif təbəqələrinin iqtisadi fəaliyyətə qoşulmasına şərait yaradır. İslam bankçılığının Asiya, Afrika və Yaxın Şərqin inkişaf etməkdə olan ölkələrində genişlənməsi Asiya, Afrika və Yaxın Şərq regionlarında İslam bankçılığı sürətlə genişlənir və gələcəkdə bu tendensiyanın davam edəcəyi gözlənilir. Bu bölgələrdə böyük müsəlman əhalinin mövcudluğu faizsiz maliyyə məhsullarına olan tələbatı artırır. İslam maliyyəsi yalnız mənfəət məqsədi güdmür, həm də sosial məsuliyyət və ədalət prinsiplərinə sadiqliyi ilə fərqlənir. Nəticədə, bu regionlarda bankçılıq sistemi, həm milli iqtisadiyyata töhfə verir, həm də qlobal maliyyə sistemində İslam bankçılığının strateji rolunu gücləndirir. Bu genişlənmə iqtisadiyyatın müxtəlif sahələrində dayanıqlı inkişafı dəstəkləyir, əhalinin maliyyə xidmətlərinə çıxışını təmin edir və sosial rifahı artırır.

**2. Texnoloji İnnovasiyalar və Rəqəmsal İslam Bankçılığı**

Texnoloji inkişaflar, xüsusilə FinTech sahəsindəki yeniliklər, İslam bankçılığının rəqəmsallaşmasını sürətləndirir və maliyyə xidmətlərinin əhatə dairəsini genişləndirir. Bu yeniliklər sayəsində müştərilərə xidmət göstərmək daha sürətli və səmərəli olur, əməliyyatlar daha şəffaf və izlənilə bilən hala gəlir. Rəqəmsal platformalar həmçinin müştəri məlumatlarının qorunması və əməliyyatların ədalətli aparılması üçün əlavə nəzarət mexanizmləri təmin edir. Bunun nəticəsində İslam bankçılığı, həm ənənəvi, həm də yeni nəsil müştərilərin ehtiyaclarını ödəmə qabiliyyətini artırır və maliyyə inklüzivliyini genişləndirir.

**3. Məhsul müxtəlifliyinin artırılması**

İslam maliyyəsi sektorunda məhsul çeşidinin genişləndirilməsi gələcəkdə faizsiz maliyyə sisteminin daha da inkişaf etməsinə imkan yaradır. İslam istiqrazları (sukuk), investisiya fondları və digər yenilikçi maliyyə alətləri vasitəsilə banklar və investisiya qurumları müştərilərə fərqli risk və gəlir səviyyələrinə uyğun məhsullar təqdim edə bilirlər. Bu, həm investorların, həm də sahibkarların ehtiyaclarını daha səmərəli qarşılamağa, həmçinin qlobal maliyyə bazarında faizsiz məhsulların payını artırmağa imkan verir. Məhsul müxtəlifliyi, eyni zamanda İslam maliyyəsi bazarının dayanıqlığını və rəqabət qabiliyyətini gücləndirir, həm milli, həm də qlobal iqtisadiyyatın inkişafını dəstəkləyir.

## NƏTİCƏ

Qlobal maliyyə sistemində İslam bankçılığı getdikcə daha mühüm yer tutur və faizsiz maliyyə prinsiplərinə əsaslanan əməliyyatlar vasitəsilə iqtisadiyyatın daha ədalətli və etik bir strukturunun formalaşmasına töhfə verir. İslam maliyyəsi, sosial məsuliyyət prinsiplərinə, şəffaflıq və bərabər imkanların təmin olunmasına əsaslanaraq, iqtisadi fəaliyyətin dayanıqlığını gücləndirir və cəmiyyətin müxtəlif təbəqələrinin maliyyə sisteminə çıxışını artırır. Bununla yanaşı, qarşıya çıxan çətinliklərin həlli və maliyyə inklüzivliyinin genişləndirilməsi İslam bankçılığı üçün əsas prioritetlərdəndir. Sistem gələcəkdə texnoloji yeniliklər və rəqəmsallaşma vasitəsilə daha da inkişaf edəcək, yeni maliyyə məhsulları və sosial məsuliyyətli xidmətlərin tətbiqi ilə iqtisadiyyatın dayanıqlığını gücləndirəcək. İslam maliyyəsi, real aktivlər və qanuni prinsiplərə əsaslanan əməliyyatları ilə qlobal maliyyə bazarında özünəməxsus rol oynayır, məhsul müxtəlifliyini artırır, riskləri azaldır və davamlı iqtisadi inkişaf üçün zəmin yaradır. Nəticədə, İslam bankçılığı yalnız müsəlman ölkələrində deyil, qlobal maliyyə sistemində də strateji və dayanıqlı bir rol oynayır, həm iqtisadi, həm də sosial rifahın təmin edilməsində əhəmiyyətli bir vasitə kimi çıxış edir.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Prof. Dr. Haydar Baş (İslam İqtisadiyyatı Eksperti). İslam İqdisadiyyatı və Maliyyəsi üzrə Beynəlxalq Konqres: Keçmiş və İndi ( ICOIEF"18 ). Karabük,27-29 sentyabr 2018-ci il.

**2.** Timoti P.D. Sisk. (2017). İslam Maliyyəsində korporativ Sosial Məsuliyyət Konsepsiyası.

**3.** Məhəmməd Əkrəm Xan. (2021). İslam İqtisadiyyatına giriş. İstanbul: İqtisadiyyat Nəşrləri.

**4.** Əhməd, I., Shabbir, G. (2024). İslam Bankçılığı haqqında tez-tez verilən suallar. Pakistan Dövlət Bankı, Karaçi.

**5.** İslanoğlu, M., Can, Ş.S. (2023).Türkiyədə İştirak Bankçılığının İnkişafı və SWOT Təhlili. Maliyyə, İqdisadiyyat və sosial Araşdırmalar Jurnalı, 8(2).

**6.** Şahin, E. (2007). Keçmişdən bu günə Türkiyədə İştirak Bankları. Kadir Has Universiteti Magistrlik dissertasiyası.

**7.** Parsa,M. (2020). İslam Və Ənənəvi Bankçılıq Modellərinin Səmərəliliyi və sabitliyi. Davamlı Maliyyə və İnvestisiya Jurnalı.

**8.** İqbal, M. Miraxor, A. (2011). İslam Maliyyəsinə Giriş: Nəzəriyyə və Tətbiq. Weley.

**9.** Çapra, M.U. (2016). Iqtisadiyyatın gələcəyi: İslam Perspektivi. İslam fondu.

**10.** Ayub, Mş (2007). İslam Maliyyəsini anlamaq. Weley.

**11.** Öztürk, H., Demir,E. (2018). Türkiyədə İslam Bankçılığı Təcrübələri və Təsirləri. Journal of Economics and Finance Research, 12(20, 45-60.

**12.** BDDK. (2023). İştirak bank sektoru hesabatı. Bank Tənzimləmə və Nəzarət Agentliyi.

**13.** Kahveci, M. (2016). Faizsiz Bankçılıq: nəzəri və Pratik yanaşmalar. Maliyyə jurnalı, 170.

**14.** Kalan, Ebru. (2024). Islam ölkələrində Yaşıl Maliyyə və Yaşıl İqtisadiyyatın Tətbiqi . Sank-Peterburq Dövlət Universiteti.

**15.** Kalan, Ebru. (2023). Türkiyədə İslam Bankçılığının Yeni Trendləri və Perspektivləri.

**16.** Kalan, Ebru Halit. (2025). Qarabağda İslam Maliyyəsinin İnkişaf Potensialı və Perspektivləri. UNEC.

**Ebru Kalan Halit**
*doctoral student, Azerbaijan State University of Economics*

## Development perspectives of interest-fre financial system: global experience of islamic banks

**Abstract**

*This article provides a comprehensive analysis of the theoretical foundations, development pathways, and operational mechanisms of interest-free financial systems. Particular attention is given to the international experience of Islamic banking and its influence on the dynamics of global financial markets. In the contemporary world, where financial systems are becoming increasingly integrated, the significance of interest-free finance has expanded, and its sphere of application has grown considerably. The study examines the fundamental principles of the interest-free financial model, assessing the operational practices of Islamic banks that adhere to these principles. The advantages and limitations of such practices are systematically evaluated. Furthermore, the article analyzes potential risks associated with interest-free financial systems, explores strategies for effective risk management, and discusses prospects for sustainable development within this framework. Considerable emphasis is placed on the positioning of Islamic financial institutions within the global financial architecture, highlighting their alignment with ethical standards and principles of social responsibility. The primary objective of the research is to evaluate the current performance of Islamic*

*financial institutions, to identify their potential for further development based on international best practices, and to outline possible directions for the effective integration of the interest-free financial model into modern economic systems. Ultimately, the study demonstrates that interest-free finance is not merely rooted in religious and ethical principles, but also represents an alternative financial model that addresses contemporary requirements such as economic resilience, risk-sharing, and social responsibility.*

***Keywords:*** *global finance, Islamic banking, risk sharing, interest-free finance, riba ban, world economy, social responsibility, interest-free financial model, interest sensitivity.*